**“TƏSDİQ EDİRƏM”**

**“Silk Way Travel” MMC-nin Direktoru**

**Niyazi Həsənov** ____________________

«_17_» _11_ ______________ 20_18_il.

# «SilkWay Travel» MMC-nin keyfiyyət sahəsi üzrə siyasəti

«SW Travel» şirkətinin keyfiyyət sahəsində əsas məqsədi müştərilərin tələblərinə cavab verən turizm xidmətlərinin göstərilməsidir.

«SW Travel» şirkətinin keyfiyyət sahəsində əsas məqsədi – Keyfiyyətin menecment sisteminin səmərəli fəaliyyəti və daimi təkmiləşdirilməsi hesabına, müştərilərin bəyan edilmiş və nəzərdə tutulan tələb və gözləntilərinin tam ödənilməsi yolu ilə turizm xidmətlərinin göstərilməsi sahəsində etibarlı, səriştəli şirkət imicinin yaradılması və turizm xidmətləri təqdim edən şirkətlər arasında qabaqcıl mövqeyə nail olunmasıdır.

Qoyulmuş məqsədlərin yerinə yetirilməsi aşağıdakı prinsiplər hesabına reallaşır:

1. Daxili və xarici mühitin dəyişən amillərindən asılı olaraq, şirkətin əsas biznes, idarəetmə və dəstəkləyici proseslərinin İSO 9001:2015 beynəlxalq standartının tələblərinə uyğun işlənib hazırlanması, tətbiqi, daimi monitorinqi, ölçülməsi, təhlili və təkmilləşdirilməsi.

2. Şirkətin fəaliyyətində müştərilər və digər maraqlı tərəflərlə açıq, uzunmüddətli və qarşılıqlı faydalı münasibət prinsiplərindən istifadəsi.

3. Müştərilərin təqdim olunan xidmətlərin çeşidləri və keyfiyyətindən tamamilə razı qalmasını təmin etmək məqsədilə onların tələblərinin və gözləntilərinin daimi öyrənilməsi, həmçinin şikayət və təkliflərlə bağlı operativ və effektiv tədbirlərin həyata keçirilməsi.

4. Turizm xidmətlərinin göstərilməsi sahəsində mövcud olan qanunvericilik və digər normativ tələblərin şirkət tərəfindən tam həcmdə yerinə yetirilməsi ilə bağlı bütün maraqlı tərəflərdə əminlik hissinin yaradılması.

5. Şirkətin bütün işçilərini keyfiyyətin təmin edilməsinə cəlb etməklə, onların fasiləsiz təlimləndirilməsi və səriştəliliyinin artırılması, daimi olaraq özünütəkmilləşdirmə və maksimal dərəcədə öz yaradıcılıq qabiliyyətlərinin aşkar edilməsi üzrə həvəsləndirilməsi.

6. Şirkətin fəaliyyətinə dair məlumatların müntəzəm olaraq toplanması və təhlilinin keçirilməsi, eləcə də, Şirkətdə Keyfiyyətin idarə olunması sistemi proseslərinin təkmilləşdirilməsi üzrə tədbirlərin işlənməsi.

Şirkətin rəhbərliyi hazırki Keyfiyyət sahəsi üzrə Siyasətin reallaşdırılması, işçilər tərəfindən onun anlaşılması və həyata keçirilməsinin təmin edilməsi öhdəliyini öz üzərinə götürür.